# ABŞERON YARIMADASININ SƏHRA VƏ YARIMSƏHRA BİTKİLİYİNDƏ RAST GƏLİNƏN BƏZİ PAXLALI BİTKİLƏRİN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Məlikova T.M., Məmmədova Z.C.**

*Bakı Dövlət Universiteti*
*turremelikova@gmail.com*

Son dövrlərdə əhalinin qiymətli qida məhsulu ilə təmin edilməsi aktual olub, bu məsələnin həlli yollarından biri də qiymətli zülallarla zəngin bitkilərin əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığının artırılması, onların qorunması və mühafizə olunmasıdır. Zülallarla zəngin belə qiymətli bitkilərdən biri də paxlalı bitkilərdir. Bu baxımdan Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilərin bioekoloji xüsusiyyətlərinin öyrənilməsi aktuallıq kəsb edir.

**Salxım lərgə - *Vicia villosa* Roth.** Salxım lərgə gövdəsi nazik, üzəri tükcüklərlə örtülü əyiləndir, hündürlüyü 100-120 sm, tez yatandır. Yarpaqları cütlələkşəkillidir. Yarpaqcıqların miqdarı 6-8-10 cüt olur. Forması lansetvaridir. Çiçəyi salxımdır. Yüksək dəyərli yemlik xüsusiyyəti ilə xarakterizə olunur. Yemlilik keyfiyyətinə görə digər paxlalı bitkilərdən üstündür. Payızlıq lərgə yaşıl ot, silos, quru ot və heyvanları otarmaq üçün istifadə edilə bilər. Aprel ayında çiçək açmağa başlayır. May-iyun aylarında isə paxlaları yetişir. İnəklərin qidalanması zamanı südün məhsuldarlığını artır və yağın keyfiyyəti yaxşılaşdırır.

Tədqiqatın materialı olaraq Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində rast gəlinən bəzi paxlalı bitki növlərinin bioekoloji xüsusiyyətlərinin öyrənilməsi olmuşdur. Tədqiqat zamanı bioekoloji xüsusiyyətləri öyrənilən növlərin eyni zamanda əmələ gətirdikləri formasiyalar, onların həyati formaları, coğrafi və areal tipləri müəyyən edilmiş, çöl tədqiqat işləri zamanı ümumi qayda ilə qəbul edilmiş geobotaniki metodlarından istifadə edilmişdir.

Tədqiqat işi yerinə yetirilərkən 300-ə qədər herbari materialı toplanmış, onların flora konspekti tərtib edilmişdir. Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyi seyrək olsa da, olduqca müxtəlif tərkiblidir. Tədqiqat zamanı paxlalı bitkilərdən lərgə (*Vicia* L.), dəvətikanı (*Alhagi* L.), paxladən və ya gəvən (*Astragalus* L.), qarayonca (*Medicago* L.), xaşa (Onobrychis Mill.), üçyarpaq yonca (*Trifolium* L.) biyan (*Glycyrhizzia* L.) və s. kimi cinslərə aid bəzi növlərin bizim tərəfimizdən bioekoloji xüsusiyyətləri öyrənilmişdir. Belə növlərdən adi dəvətikanı (*Alhagi pseudalhagi* (Bieb.) Fisch), Bakı gəvəni (*Astragalus bakuense* Bunge.), odlu gəvən (*Astragalus igniarius* M.Pop), Xəzər gəvəni (*Astragalus caspica Bieb.)*, kiçik qarayonca (*Medicago minima* (L.) Bartalini), əkin qarayoncası (*Medicago sativa* L.), şirin biyan (*Glycyrhizzia glabra* L.) və s. qeyd etmək olar.

Bioekoloji xüsusiyyətləri öyrənilən növlərdən əkin yoncası (*Medicago*

*sativa* L.) birillik ot bitkisi olub, yarpaqları üçər və yarpaqaltlıqlıdır. Paxlası az toxumlu, oraq yaxud böyrəkşəkilli, spiralvari burulan, adətən tikancıqlıdır. Kasacıq 5 dişcikli olub, çiçəkləri bənövşəyi rəngdədir. Adətən may-iyun aylarında çiçək açır. Qiymətli yem bitkisi olmaqla yanaşı, qandayandırıcı xassəyə malikdir.

Adi dəvətikanı (*Alhagi pseudalhagi* (Bieb.) hündürlüyü 30-70 sm olan çoxillik tiknalı ot bitkisidir. Gövdəsi açılmış budaqlıdır, budaqları çılpaq, nazik, yaşıl rəngdədir, iti bucaq altında yuxarı yönəlmişdir. Aşağıdakı tikanları 1-2 sm uzunluqda bərk, digərləri yumşaq elastik, yayın sonlarında bir qədər bərkiyir və 2-3 sm çatır. Yarpaqlarının uzunluğu 5–28 mm, eni 1–8 mm, uzunsov lansetvari və ya oval formalıdır. Çiçəkləri, 3-8 sayda olmaqla, tikanların üstündə açılır, tacı çəhrayıdır. Paxlası çılpaq, əyri və ya düzdür, hərəsində 1-10 toxum vardır. İyun-iyul aylarında çiçəkləyir və meyvə verir. Bitkinin tərkibində flavonoidlər, saponinlər, şəkər, aşı maddələr, C, K və B qrupu vitaminləri, karotin, ursol turşusu və s. maddələri mövcuddur.

Paxlalı bitkilər başqa bitkilərə nisbətən xeyli quraqlığa davamlıdırlar. Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində rast gəlinən bu paxlalı bitkilərin bioekoloji xüsusiyyətləri öyrənilərək onların qorunub saxlanılması, mühafizəsi və sayının artırılması vacib məsələlərdəndir.